UOT 94
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.242

# İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ YARANMASI VƏ FƏALİYYƏTİ

**SEVİNC MƏMMƏDOVA**
*Bakı Dövlət Universitetinin " Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının doktorantı*
*E-mail: sevincgulshen62@gmail.com*

İslam Əməkdaşlıq Təşkilatını anlamaq üçün əvvəla beynəlxalq təşkilat qavramını anlamaq lazımdır. Ən ümumi ifadə ilə beynəlxalq təşkilat müstəqil və suveren dövlətlərin və ya hökumətdən kənar quruluşların qlobal və regional ölçüdə ümumi və ya xüsusi məqsədlərə nail olmaq uğrunda əməkdaşlığı təmin etmək üçün yaratdıqları sistemlər, mexanizmlərdir [2]. Beynəlxalq təşkilatlarda təhlükəsizlik məqsədi əsas faktorlardan biri olması ilə yanaşı hərbi, siyasi, mədəni və iqtisadi səbəblər də ön plana çıxır. Beynəlxalq təşkilata üzv olan millətlərin, xalqların hər biri fəaliyyət sahəsində müəyyən olunmuş qanunlara və qaydalara riayət etməlidir. Belə olduqda beynəlxalq təşkilatların əslində qarşıya qoyulan məqsədə çatmaq üçün müvəqqəti və ya daimi bir rejim yaratmağa çalışdığını deyə bilərik.

İƏT-ə qədər müsəlmanlar bütün qlobal sahələri əhatə edən bir təşkilat yaratmamışdılar. Çox vaxt yaradılan birliklər və ya təşkilatlar regional sahələri əhatə edir və çox dar fəaliyyət göstərirdi. Bu mənada Ərəb Birliyi, ASEAN, Bağdad paktı kimi quruluşları misal göstərə bilərik. Ancaq İƏT bu sıralardan fərqli olaraq ilk dəfə islam dünyasını dini, mədəni və siyasi ünsürləri əhatə edəcək şəkildə təmsil edən birlik hərəkatı olaraq meydana gəldiyini ifadə etmək düzgün olar.

Bəzi tədqiqatçılar İƏT-in də regional bir təşkilat olduğunu vurğulayırlar. Amma digər tədqiqatçıların fikrincə, o bütün islam dünyası üçün çətir funksiyalı təşkilat kateqoriyasından sayılır. Təşkilatın yaranma tarixinə diqqət etsək, bütün müsəlmanları birləşdirəcək bir təşkilat fikrinin Nigeriya baş naziri Əhməd Belo tərəfindən irəli sürüldüyünü görək bilirik. Belonun 1965-ci ildə Məkkədə keçirilən "Dünya İslam Birliyi" toplantısında ortaya qoyduğu bu fikir Səudiyyə Ərəbistanı kralı Veysəl və Mərakeş kralı II Həsən tərəfindən dəstək görməsinə baxmayaraq 1967-ci ildə Ərəb-İsrail müharibəsinin baş verməsi ilə birinci cəhd uğursuz oldu. Bu təşkilatın Ərəb-İsrail münaqişəsi nəticəsində ortaya çıxdığını söyləmək doğrudur. 21 avqust 1969-cu ildə Qüdsdə yerləşən və müsəlmanların müqəddəs qəbul etdiyi Məscidi Əqsanın fanatik bir yəhudi tərəfindən hücuma məruz qalması nəticəsində islam dünyasında böyük etirazlar meydana gəldi. Bunun nəticəsi olaraq başda Səudiyyə Ərəbistan olmaqla 24 islam ölkəsinin iştirakı ilə 25 sentyabr 1969-cu ildə Rabatda ilk İslam Zirvə konfransı tərtib edilmişdi. Beləliklə, məqsədləri islam dünyasının haqq və mənafeyini qorumaq, üzv dövlətlər arasında əməkdaşlığı və dəstəyi gücləndirmək olduğu göstərilən İslam Konfransı Təşkilatı rəsmi şəkildə yaradıldı.

İslam Konfransı Təşkilatı adı ilə təşkil olunan bu birliyin adı 2011-ci ilin iyul ayında Astanada təşkil olunan 38-ci xarici işlər nazirlərinin konfransında İslam Əməkdaşlıq Təşkilatı olaraq dəyişdirilmişdir. Edilən bu ad dəyişikliyinə dair fikirlərini bildirən İbrahim Şargi bunu yalnız termin olaraq dəyişdirilmədiyini, əslində getdikcə üzv ölkələri arasındakı əməkdaşlığın dərinləşməsi üçün daha da ciddi addımlar atılması məqsədi ilə belə bir addım atılmasının doğru olduğunu söyləmişdi. Həqiqətən də yaradılışından bu tərəfə təşkilata üzv olan ölkələrin sayında yüksək artım özünü göstərir. Bu baxımdan BMT-dən sonra ikinci ən böyük təşkilata çevrildi. Hər bir təşkilatda olduğu kimi İƏT də öz növbəsində xüsusi struktura və idarəçilik prinsipinə sahibdir. Bu strukturun quruluşunu izah etməzdən əvvəl təşkilatın prinsiplərinə nəzər yetirək. Bu prinsiplər dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilir və yeniləri əlavə olunur. İƏT-in məqsəd və prinsipləri siyasi, iqtisadi, sosial, mədəni və insan hüquqlarına müvafiq şəkildə təsnif oluna bilər. Bu məqsədləri aşağıdakı formada saya bilərik:

1.Təşkilata üzv olan ölkələr arasında münasibətləri inkişaf etdirmək;

2.İqtisadi, sosial və mədəni sahələrdə ortaq layihələr həyata keçirmək;

3. Müstəmləkəçilik, bərabərsizlik və irqi ayrı-seçkilik kimi ədalətsizliklərə tamamilə son vermək;

4. Beynəlxalq arenada sülhü təsis etmək üçün bir qism addımlar atmaq və bu çərçivədə kriteriyalar ortaya qoymaq;

5. Müqəddəs amillərin mühafizəsi üçün ortaq təşəbbüs yaratmaq;

6.Fələstin məsələsində Fələstin xalqının azadlıq mücadiləsini dəstəkləmək və yardım etmək;

7.Dünya coğrafiyasının hər yerində müsəlman cəmiyyətinin azadlıq və hüquqlarının müdafiə edilməsi üçün mücadilə etmək; Təşkilat məqsədləri ilə yanaşı əsas ideoloji fikir olaraq bunları mənimsəmişdir: təşkilatın üzvü olan dövlətlər arasında tam bərabərlik; üzvlərin bir-birlərinin torpaq bütünlüklərinə, azadlıqlarına və suverenliklərinə hörmət; üzvlərin bir-birlərinin daxili işlərinə qarışmamaları; üzv ölkələrin arasında meydana gələ biləcək anlaşılmazlıqlarda vasitəçi üslub mənimsəyərək ədalətli qərar vermək; hər hansı bir üzvün suverenlik, torpaq bütövlüyü və milli birliyinə qarşı təhdid və ya gücdən istifadə hallarından qorunmaq. Təşkilatın məqsədlərini həyata keçirmək üçün göstərdiyi səylərə diqqət yetirdikdə isə istənilən səviyyədə nailiyyətin əldə olunmadığı görünür. İƏT-ə üzv ölkələrin bir çoxu coğrafi olaraq bir-birlərinə yaxın olmalarına baxmayaraq istər iqtisadi, istərsə də sosial baxımdan qarşıya qoyulan məqsəd çərçivəsində əməkdaşlığa və dəstəyə nail olunmayıb. İƏT-in təsirinin zəif olmasının əsas səbəbi üzv ölkələrin sosial-mədəni quruluşları ilə iqtisadi inkişaf səviyyələrinin fərqli mərhələdə olmasıdır.

Bu vəziyyət hər ölkənin hədəfini fərqli edir və üzvlər arasında əməkdaşlığın yaranmasında problemlər ortaya çıxardır. Eyni zamanda üzv ölkələrin öz aralarında və ya üzv olmayan digər ölkələrlə mövcud olan problemləri ölkələri fərqli siyasi xətlər həyata keçirməyə məcbur edir və nəticə etibarilə bu vəziyyət İƏT-in məqsədyönlü çalışmasına mane olur. Təşkilatın təsir dairəsini zəiflədən bir digər səbəb isə iqtisadi dəstəkçilərinin sadəcə yeddi ölkə: Səudiyyə Ərəbistanı, İran, Küveyt, Liviya, Birləşmiş Ərəb Əmirlikləri, Malayziya və Türkiyə olmasıdır. Bu vəziyyət təşkilatı həm maliyyə cəhətdən zəif edir, həm də təşkilatın qərarvermə müddətində bu yeddi ölkənin təsirini artırır və qərarların qəbul olunmasında digər üzvlərin iştirakına mane olur. Nəticə etibarilə İƏT-ə üz ölkələrin dünya ticarətindəki paylarını düşünsək qarşıya qoyulan məqsədə çatmağın heç də utopiya olmadığı görünür. Sadəcə olaraq bu məqsədə çatmaq üçün həyata keçirilən fəaliyyət kifayət qədər deyil. İƏT-in əsas 3, ümumilikdə isə 11 təşkilati orqanı mövcuddur. Ən vacib 3 orqan zirvə konfransları, xarici işlər nazirlərinin konfransları və baş katiblikdir. Zirvə konfransları fövqəladə bir vəziyyət olmadığı müddətdə ölkə kralları və ya dövlət başçılarının iştirakı ilə hər üç ildən bir keçirilir. Bu görüşlərdə ümumi olaraq islam ölkələrinin siyasi, iqtisadi, sosial və mədəni problemləri müzakirə olunur və bu problemlərin öhdəsindən gəlmək üçün atılacaq addımlar ortaya qoyulur [2].

Üzv ölkələrin xarici işlər nazirlərindən meydana gələn xarici işlər nazirləri konfransları isə hər il fərqli bir ölkədə keçirilir. Əsas məqsədi zirvə konfranslarında alınan qərarların həyata keçməsinə nəzarət etməkdir. Digər məqsədlər içərisində İƏT ilə Birləşmiş Millətlər Təşkilatı arasında əlaqə yaratmaq; lazım olarsa yeni orqan və komitələrin qurulması qərarını vermək; Baş katib və köməkçilərini vəzifəyə təyin etmək. Təşkilatın idarəçi orqanı olan baş katibliyin əsas vəzifəsi isə təşkilata üzv ölkələr arasında məlumatların mübadiləsini həyata keçirərək xarici işlər nazirləri konfransında alınan qərarların həyata keçirilməsini izləmək; bunlar haqqında məlumat vermək; ehtiyac olduqda lazımi dəstəkləri göstərməkdir. Baş katib hər hansı bir problem yaranmadığı müddətcə xarici işlər nazirləri şurası tərəfindən arxa-arxaya ən çox iki dövr olmaq üzrə 5 il seçilir və vəzifədə qaldığı müddətdə verdiyi qərarlarda hər hansı bir ölkə tərəfindən əmr almadan müstəqil hərəkət edir. İƏT-in əsas hədəflərini həyata keçirmək üçün mövcud olan orqanların xaricində xüsusi sahələrdə məqsədləri reallaşdırmaq üçün yaratdığı dörd əsas komitə də mövcuddur. Üzv dövlətlərin müvafiq sahələr üzrə nazirlərinin qatıldığı həmin komitələr bunlardır:

1.Güc komitəsi;

2.İslam əməkdaşlığı təşkilatı iqtisadi və ticarət əməkdaşlığı daimi komitəsi;

3.İnformasiya və mədəni işlər üçün daimi komitə;

4.Elmi və texnoloji əməkdaşlıq üçün daimi komitə;

Bu komitələr arasında siyasi və dini baxımdan önə çıxan yeganə komitə Güc komitəsidir. Mərkəzi Rabatda yerləşən, 1975-ci ildə qurulan Güc komitəsinin əsas məqsədi mərkəzi Qüds olmaqla Fələstinin müxtəlif şəhərlərində yaşayan insanlara iqtisadi baxımdan edilən yardımları idarə etməkdir. Bununla yanaşı komitə başda Məscidi Əqsa olmaqla ətrafında mövcud olan dini baxımdan müqəddəs qəbul

edilən tikililərin qorunması üçün həyata keçirilən əsas tədbirləri müəyyənləşdirərək lazımi addımların atılmasını izləyir. Güc komitəsi xaricində qalan digər komitələr ölkələrin iqtisadi və sosial baxımından inkişafını həyata keçirmək və üzv ölkələrin bu sahədə bir-biri ilə olan əlaqələrini möhkəmlətmək məqsədi ilə qurulmuşdur. Bu baxımdan İƏT-in sadəcə siyasi və dini bir təşkilat olmadığı ortaya çıxır. Xüsusilə İƏT-in iqtisadi və ticarət sahəsində əməkdaşlıq üzrə daimi komitəsi bu komitələr arasında ölkələrin iqtisadi inkişaf səviyyələrini artırmağa yönələn layihə və işlər həyata keçirir. İƏT-in iqtisadi siyasətinin müəyyənləşdirmə nöqtəsində vacib mövqeyə sahib olan "İslam ölkələri statistik iqtisadi və sosial araşdırma və təhsil mərkəzi"(İSEDAK) də yenə təşkilatın xüsusi bir parçası olaraq meydana çıxır. İƏT ölkələri arasında iqtisadi əməkdaşlığı möhkəmlətmək və üzv ölkələrin inkişafına yardım edə bilmək üçün 1978-ci ildə Ankarada yaradılan bu mərkəz ümumi olaraq İƏT ölkələrinin vəziyyətinin statistikasını müəyyənləşdirir, ehtiyaclarını göstərir və bu formada bu gün də üzv dövlətlərin faydalana biləcəyi məsləhətləri qeyd edir. Eyni zamanda mərkəz müxtəlif mövzularda təlim və konfranslar təşkil edərək üzv ölkələr arasında potensial iqtisadi əməkdaşlığı inkişaf etdirir. İƏT-in iqtisadi və ticarət əməkdaşlığı üzrə daimi komitəsi üzv ölkələrin iqtisadi inkişaflarını həyata keçirmək, üzvlər arasında iqtisadi əməkdaşlığı daha da artırmaq və islam ölkələrində meydana gələn iqtisadi problemləri həll etmək məqsədi ilə 1981-ci ildə Məkkədə keçirilən 3-cü İslam Zirvəsində alınan bir qərarla yaradılmışdır. Bu zirvədə İSEDAK-ın vəzifələri göstərildi və bu vəzifələr aşağıdakılardır:

- Üzv ölkələrdə mövcud olan iqtisadi problemləri həll edərək ölkələrin inkişafına nail olmaq;
- Üzv ölkələrin rifah səviyyələrini yüksəltmək;
- Üzv ölkələr arasında ticarət fəaliyyətlərinin və əməkdaşlığın inkişafı üçün vacib addımlar atmaq;
- Üzv ölkələrin ticarət və iqtisadi qabiliyyətlərini yüksəltməyə yönələn vacib proqramları yaratmaq və bunları tətbiq etmək;
- Üzv ölkələrin iqtisadi və ticarət mövzularında beynəlxalq səviyyədə ortaq hərəkət etməsini təmin etmək;
- Üzv ölkələr arasında mövcud olan əməkdaşlığın davam etməsi üçün lazımi koordinasiya fəaliyyətlərini davam etdirmək;

İSEDAK məqsədlərini həyata keçirmək üçün bir çox mövzuda əməkdaşlığı mümkün edə biləcək şəkildə inkişaf etdirir. Bu işlər ticarət, logistika, turizm, təsərrüfat, yoxsulluğun azaldılması, maliyyə əməkdaşlığı və özəl sektorun inkişafını əhatə edir. İSEDAK-ın ticarət mövzusunda əməkdaşlığını həyata keçirməyə yönəldən addımlardan ən önəmli layihəsi ölkələr arasında seçimli ticarət sistemini həyata keçirməsidir. Bu layihə ilə birlikdə üzv ölkələr arasında müxtəlif məhsullarda var olan gömrük məhsullarının mərhələli olaraq aradan qaldırılması və bu sayədə üzv ölkələr arasında ticarətin inkişaf etdirilməsi hədəflənir. Ticarətin davamiyyətli və sürətli olması üçün üzv ölkələr arasında nəqliyyat sahələrinin inkişaf etdirilməsinə yönələn müxtəlif layihələr həyata keçirilir. Bu məqsədlə islam ölkələrində logistik zəminin planlanması adlı məlumat raporu 2018-ci ildə İSEDAK tərəfindən hazırlanıb və bu ölkələrdə ticarət fəaliyyətlərinin inkişafı üçün logistik sahədə atılması lazım olan addımlar təsbit edilmişdir. Turizm sahəsində həyata keçirdiyi layihələrə baxılanda isə müsəlman dostu turizm layihəsi önə çıxır. İSEDAK islami qanunlara qarşı həssas olan insanların istifadə etdiyi otellər üçün lazımi standartları ortaya qoymaq və bu sahədə standartları daşıyan otellərə sertifikat verərək bu otellərdən istifadə edən insan sayının artmasına yüksək səviyyədə yardım edir. İƏT üzv ölkələrin bəzi vətəndaşlarının islami qanunlara həssaslığını daşımaları səbəbi ilə üzv ölkələrdə MDT sertifikatına sahib müxtəlif otellərin açılmasının o ölkələrin turizm gəlirlərinə yüksək səviyyədə gəlir gətirmişdir. Bu mənada MDT sertifikatının istehlakçıda inam yaratdığı və nəticə etibarilə İSEDAK-ın bu layihəsinin faydalı olduğu söylənə bilər. İSEDAK-ın əməkdaşlıq sahələrindən bir digəri də təsərrüfatdır. Necə ki, 2019-cu ilin noyabr ayında İstanbulda həyata keçirilən İSEDAK-ın iqtisadi zirvəsində təsərrüfatın əsas sektor olduğu bildirilmişdir. İSEDAK üzv ölkələrin təsərrüfat məhsullarına tələblər ortaya qoyaraq bu məhsullarda üzv ölkələr arasında ticarətin inkişafı üçün koordinasiya vəzifəsi təşkil edir. Bununla yanaşı İSEDAK qida təhlükəsizliyi, məhsuldarlıq kimi sahələrdə bilik və təcrübələrin öyrədilməsi məqsədi ilə müxtəlif tədbirlər həyata keçirdir. İSEDAK eyni zamanda İƏT-ə üzv ölkələrdə aclıq və yoxsulluğun azaldılması və inkişafın davamlığı üçün layihələr həyata keçirir. Bu məqsədlə İSEDAK

inkişaf üçün "İslami dəstək fondu", Afrika üçün xüsusi inkişaf proqramı, İƏT-ə üzv ölkələr üçün təhsil və elm proqramı hazırlamışdır. Eyni zamanda BMT-nin minillik inkişaf hədəflərinə bənzər şəkildə 2030-cu ildə qlobal ölçüdə yoxsulluğun da aradan qaldırılmasını hədəfləyən davamlı inkişaf hədəflərini də ortaya qoyur. İSEDAK-ın bir digər vacib fəaliyyəti isə üzv ölkələrdə özəl sektorın inkişaf etdirilməsidir. Üzv ölkələr arasında edilən özəl sektor investisiyalarının təsirli bir şəkildə inkişaf etdirilməsi üçün vacib addımlar atılır. Bu baxımdan yarmarkalar təşkil olunur, tələblər və təkliflər nəzərə alınır.

İƏT ölkələri arasında iqtisadi əməkdaşlığın inkişafı üçün İslam İnkişaf Bankının önəmli rolu vardır. İslam İnkişaf Bankı tərkibində 5 fərqli quruluşu ehtiva edir. 1973-cü ildə yaradılan bu birliyin tərkibində İslam İnkişaf Bankı, İslam tədqiqat və təhsil institutu, xüsusi sektorun inkişafı üçün İslami krediti sığortası qurumu və beynəlxalq islami ticarət maliyyə qurumu fəaliyyət göstərir. İslam İnkişaf Bankının əsasən fəaliyyəti bundan ibarətdir:

- İƏT ölkələrində xüsusi sektorun inkişafı üçün mənbə və biliklə təmin etmək;
- Üzv ölkələr arasında faktor intensivliyini artırmaq;
- İxracat və investisiya üçün maliyyə dəstəyi;
- Maddi dəstəyə ehtiyacı olan ölkələrə kredit vermək;
- İslami Bankçılığı inkişaf etdirmək;
- İnkişaf etməmiş və ya az inkişaf etmiş İƏT ölkələrində əsas problemləri həll etmək;

İİB quruluşundan bu günə qədər bir çox layihəyə imza atmışdır. Belə ki, 1973-cü ildən 2018-ci ilin sonuna qədər 9375 layihə həyata keçirilmiş və bu layihələrdə ümumilikdə 193 milyard ABŞ dolları dəyərində maliyyə dəstəyi vermişdir. İƏT-ə üzv ölkələrin iqtisadi və ticarət sahəsində homogenlik göstərmədikləri və bəzi ölkələrin iqtisadiyyatının yaxşı olmasına baxmayaraq bəzi ölkələrdə yoxsulluqla mücadilə mövcud olduğunu deyə bilərik. Bu baxımdan İƏT-ə üzv ölkələri iqtisadi inkişaf etmə səviyyəsinə görə 3 qrupa bölmək olar. Bu qruplardan birincisində Əfqanıstan, Banqladeş, Burkina Faso, Cibuti, Çad, Qambiya, Qvineya, Maldivlər, Mali, Mavritaniya, Mozambik, Nigeriya, Seneqal, Somali, Sudan, Uqanda və Yəmən aiddir. BMT tərəfindən inkişaf etməmiş ölkə olaraq müəyyənləşən bu ölkələrdə ən böyük problem yoxsulluqdur. Ümumilikdə təsərrüfat məhsulları ixrac edən bu ölkələrdə sənayeləşmə yox səviyyəsindədir. İkinci qrupa İndoneziya, Fil dişi sahilləri, Fələstin, Kamerun, Qazaxıstan, Qırğızıstan, Livan, Mali, Malayziya, Misir, Özbəkistan, Pakistan, Surinam, İordaniya, Tacikistan, Tunis və Türkiyə aiddir. Orta gəlirli bu ölkələr həm sənaye, həm də xidmət sektorunda ilk qrupdakı ölkələrə nəzərən daha yaxşı səviyyədədirlər. Ancaq inkişaf etmiş ölkə iqtisadiyyatları ilə müqayisə olunanda istər adambaşına düşən milli gəlir baxımından, istərsə də istehsal səviyyəsi baxımından kifayət qədər deyillər. Neft ixrac edən ölkələrin yerləşdiyi 3-cü qrupda isə Azərbaycan, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Bruney, Cəzair, Qabbon, İran, İraq, Qətər, Küveyt, Liviya, Nigeriya, Oman, Səudiyyə Ərəbistanı və Türkmənistan yer tutur. İxracatları təbii resurslara əsaslanan bu ölkələrin iqtisadi inkişaf səviyyələri eyni standartda olmasa da qrupdakı hər ölkənin inkişaf sürəti olduqca yüksəkdir. Bu baxımdan həmin ölkələr arasında homogen bir vəziyyətin olmadığı və təşkilat içərisində sənayeləşmiş bir ölkə qrupunun olmadığı diqqət çəkir. Bu mənada ölkələrin ixrac etdiyi məhsullar dəyərləndirildikdə təşkilatın öz içərisində edəcəyi ticari fəaliyyətlərin kifayət qədər olmadığı nəzərə çarpır. Belə ki, birinci qrupda yer alan ölkələr çoxluqla təsərrüfat məhsulları ixrac edərkən 2-ci qrupdakı ölkələrin sənayeləşmə cəhdləri içərisində olmalarına qarşı sənaye məhsullar ixracatında kifayət qədər geri olduqları özünü göstərir. 3-cü qrupdakı ölkələrin isə ixracatının çoxu təbii mənbələrdir. Bu mənada İƏT-ə üzv ölkələrin öz daxilində etdikləri ticarət tədqiq olunduğunda istənilən səviyyədə bir vəziyyətin ortaya çıxmadığı görülür. İƏT ölkələrinin ümumilikdə 1.63 ton dollarlıq mal ixracatlarının 77,7 faizi ilə 1.76 trilyon dollar mal idxalının 73,6 faizi sadəcə 10 ölkə tərəfindən edilir. [3] Meydana çıxan bu fərqlərin mənfi cəhətlərinə rəğmən İƏT ölkələrinin ən vacib avantajı yerləşdikləri coğrafiyadır. Coğrafiya ölkələrin iqtisadi-sosial və mədəni sahələrinin formalaşmasında önəmli rola malikdir. Bu mənada bir ölkənin strateji olaraq vacib bir bölgədə yerləşməsi o ölkənin iqtisadi inkişafına xüsusi təsir edəcək. Bu baxımdan qiymətləndiriləndə dünyadakı neft və təbii qazın önəmli bir qismi islam ölkələrindən çıxarılır və bu vəziyyət islam ölkələrinə fayda verir. Eyni zamanda bir çox islam ölkəsi Asiya və Avropa qitələri ilə Afrika

və Asiya qitələri arasında körpü vəzifəsini həyata keçirir. Nəticə etibarilə İƏT-ə üzv bir çox ölkənin strateji olaraq vacib bölgələrdə yerləşməsi və təbii resurslara sahib olmaları səbəbi ilə coğrafi olaraq bir avantaj içərisində olduqlarını söyləyə bilərik. Beynəlxalq təşkilatlar beynəlxalq əlaqələr də ciddi rola malikdir. İƏT üzv dövlətlərini müxtəlif mövzularda rəsmi və qeyri-rəsmi olaraq müzakirə üçün bir yerə toplayır. Ancaq İƏT-nın beynəlxalq məsələlərdə müstəqil bir rola sahib olduğu düşüncələrdə sual yaradır. Çünki üzv dövlətlərin müsəlman dünyası üçün həyati əhəmiyyət daşıyan mövzular haqqında yekdilliklə danışmadığı diqqətdən yayınmır. Ancaq üzv ölkələr içərisində yoxsulluğun azaldılması, qərb dünyasındakı irqçiliyin artması və islamofobiya fəaliyyətlərinin genişləndirilməsinin qarşısının alınması və müsəlman dünyasında sosial inkişaf kimi mövzularda təşkilatın təsirli bir rola malik olması ortaya çıxır və bu diqqətə alınmalı məqamdır.

Yuxarıda göstərilən tərəflərinə baxmayaraq İƏT müsəlman dünyası üçün çox böyük əhəmiyyətə malikdir. Bu təşkilatın aktiv üzvlərindən olan Azərbaycan Respublikası üçün xarici siyasətdə mühüm mövqeyi var. Bu təşkilat Ermənistanın Azərbaycana təcavüz faktını tanıyan və onu qınayan ilk beynəlxalq təşkilatdır. Qarabağ problemi təşkilatın bütün konfranslarının diqqət mərkəzində olmuşdur. Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinə dair qəbul olunan qətnamədə məhz Ermənistanın Azərbaycana etdiyi təcavüz pis qınanılmış və bunun qarşısının alınması üçün dünyaya müraciət olunmuşdu və ilk dəfə Azərbaycanın haq səsi dünyaya çatdırılmış oldu.

Beləliklə, müsəlman ölkələr arasında iqtisadi, siyasi və sosial inteqrasiyanın önündə bir çox maneə mövcuddur. Mövcud siyasətlərin davam etdirilməsi vəziyyətində bu maneələrin aradan qaldırılması da bu gün üçün mümkün olmadığı görünür. Ölkələr arasında mövcud olan problemlərin aradan qaldırılması, təşkilatın lehinə hərəkət edilməsi və ticarət sahəsində İƏT ölkələri arasında müsbət ayrı-seçkilik edilməsi lazımdır. Eyni zamanda ticarət əməkdaşlığının inkişaf etdirilməsi məqsədi ilə İƏT-ə üzv zəngin körfəz ölkələri ilə kasıb Asiya və Afrika ölkələri arasında yardım faktorunun gücləndirilməsi halında qısa müddət inkişaf etmiş İƏT ölkələrinə iqtisadi zərər göstərsə də uzun müddət həm inkişaf etmiş, həm də inkişaf etməmiş İƏT ölkələri bu vəziyyətdən fayda görəcək.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Nurbay S. "İslam İşbirliği teşkilatı üzerine bir değerlendirme: ekonomik sorunlar ve fırsatlar". Journal homepage: http://dergipark.gov.tr/jief- // Journal of Islamic Economics and Finance- 2020, 6(1) 55-74 s.*

*2. Merve A. "Uluslararası bir aktör olarak İslam İşbirliği Teşkilatı./ Barış araştırmaları ve çatışma çözümleri dergisi cilt No 7, 2019, 52-68 s.*

*3. Şirəliyeva G. "İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətində Heydər Əliyevin rolu"/ Akademik Tarih ve düşünce dergisi. 2023, 1058-1066 s.*

## XÜLASƏ

İslam Əməkdaşlıq Təşkilatı nüfuz dairəsinə görə Birləşmiş Millətlər Təşkilatından sonra dünyada ən böyük beynəlxalq qurumdur. 57 ölkənin üzv olduğu bu təşkilat müsəlman ölkələrinin siyasi, iqtisadi, mədəni əməkdaşlığını təmin edir. Məqalədə təşkilatın yaranması, fəaliyyəti və strukturu haqqında araşdırma aparılıb. Üzv ölkələrin hərtərəfli əlaqələrinin inkişafı və təşkilatın əsas strukturları və onların fəaliyyəti göstərilmişdir. Təşkilatın daxilində iqtisadi münasibətlərin tənzimlənməsinə dair həll yolları qeyd edilmişdir.

**Açar sözlər:** *İslam Əməkdaşlıq Təşkilatı, İSEDAK, İslam İnkişaf Bankı.*

## СОЗДАНИЕ И ДЕЯТЕЛЬНОСТЬ ОРГАНИЗАЦИИ ИСЛАМСКОГО СОТРУДНИЧЕСТВА

**Севинч Мамедова Зелимхан гызы**
***Докторант кафедры "История Азербайджана (гуманитарные факультеты)" Бакинского Государственного Университета***

## РЕЗЮМЕ

Организация исламского сотрудничества является второй по величине международной организацией в мире после Организации Объединенных Наций по масштабам своего влияния. Эта организация, в которую входят 57 государств-членов, обеспечивает политическое, экономическое и культурное сотрудничество мусульманских стран. В статье исследуются создание, деятельность и структура организации.

Показано развитие всесторонних отношений между государствами-членами. Показаны основные структуры организации и их деятельность. Отмечены решения по регулированию экономических отношений внутри организации.

**Ключевые слова:** *Организация Исламского Сотрудничества, Постоянный комитет по экономическому и торговому сотрудничеству Организации Исламского сотрудничества, Исламский Банк Развития.*

## THE ESTABLISHMENT AND ACTIVITIES OF THE ORGANIZATION OF THE ISLAMIC COOPERATION

**Sevinj Mammadova Zelimkhan**
***PhD student of the "History of Azerbaijan (humanities faculties)" departament of Baku State University***

**SUMMARY**

The Organisation of Islamic Cooperation is the second largest international organisation in the world after the United Nations, in terms of the scope of its influence. With 57 member states, this organisation ensures the political, economic, and cultural cooperation of Muslim countries. The article investigates the establishment, activities, and structure of the organisation. The development of comprehensive relations between member states is shown. The main structures of the organisation and their activities are shown. Solutions to the regulation of economic relations within the organisation are noted.

**Key words:** *The Organisation of Islamic Cooperation, COMCEC, Islamic Development Bank.*